

## MAHİR CAVADLI

### İMANLI

*Zəngilan məscidinin Axundu Hacı Müşfiq Fərzəliyevə*

Qəlbində İlahi məhəbbəti var,
Sözündə Quranın kəraməti var,
Avazında əzan lətafəti var -
Haqqın sədasıdır, eşqin meracı,
Ruhuma səmavi qidadır, Hacı!

Yaradan hər kəsə bir yol, iz verib,
Səni bu dünyaya pak, təmiz verib,
Açıq alın verib, gülər üz verib,
Qıymazsan kimsəyə bir ağrı-acı,
Qəlbə məlhəm sözün bal dadır, Hacı!

Səsinlə xal vurub hər incə telə,
Şövqünlə məclisi alırsan ələ,
Tanrının payısan bu yurda, elə,
İnsanların haqqa ümid, inancı,
Çətin günümüzün imdadı, Hacı!

Nakam şairimin adaşı Müşfiq,
İgid şəhidimin yurddaşı Müşfiq,
Haqq sözün dayağı, sirdaşı Müşfiq,
Savabın, savadın başının tacı,
Yurdumun imanlı övladı Hacı!

Bəlli ki, qoşadır şər ilə xeyir,
Tanıyan "həyansan sən elə" deyir.
Səsinin sehrindən doğan bu şeir
Haqqın dərgahından nidadı, Hacı!
Paklığa, saflığa duadı, Hacı!

### DÜNYANI QORUYAQ

Nə düşmüşük bir virusun üstünə,
Çox durmuşduq dünyamızın qəsdinə.
Ümid olma sınağına, testinə,
Var-dövlətlə alınmaz, nə azardı?!.
Bəs deyirdin bu dünya bir bazardı!

Fərqi nədir, taclı olsun, ya keçəl?!..
Tacı ilə gətiribdi çox əcəl.
Dost-yar bilməz, yaddan-yada da keçər,
Ayırd etmir naxələfi mərdindən,
Qorunmasan öləcəksən dərdindən!

Çox darıxdım, qoymur çıxım, üz görüm,
İnsan oğlu, di gəl, qoşub düz görüm,
Öz günahın, öz bəlandır, döz görüm?
Orda-burda saldın nifaq, qalmaqal,
İndi otur, əlini yu, evdə qal!

Nə böyükmüş bu bəlanın təsiri,
Ev-eşiyi dolanırıq sərsəri.
Bəlkə də bir başboşun baş əsəri,
Cindi - çindi, amerkan, ya urusdu,
Can qoyublar, canlar alan virusdu!

Məntiq budur, başı-canı qoruyaq,
Hər bir yanı, hər bir anı qoruyaq,
Təmiz olub bu dünyanı qoruyaq,
Sağlam canın, xoş ömrün ən asanı -
Uca tutaq təbiəti, insanı!

### NİZAMSIZ BAĞIMDA, ÖZ NİZAMIMDA

Deyirlər bağımın nizamı yoxdur,
Ağaclar sırayla, düz əkilməyib.
Bir yan seyrəklikdir, bu yanı sıxdır,
Kollar əkiləndə ip çəkilməyib,

Deyirlər alaqdır bağayarpağı,
Unnuca, razyana, keşniş alaqdır.
Yabanı gül-çiçək bürüyüb bağı,
Onların ki yeri dağdır, yaylaqdır.

Yamac bitkisidir turşəng, yemilik,
Lalələr düzlərin döş nişanıdır.
Qum üstə dağ gülü olsun yenilik,
Xan çinar yudsuzluq pərişanıdır!

Gözümü yumuram, qumu narın bağ
O kənd-kəsəyimi yadıma salır.
Açıram çinardan qopan beşbarmaq
Məni yurd həsrətli oduma salır.

Neynim, bir alağı çıxarıb kökdən,
Bir budağı gülsüz qoya bilmirəm,
Zolaqlı bir arı uçur pətəkdən,
O qonan çiçəyə qıya bilmirəm.

Quşların cəh-cəhi ən həzin nəğməm,
Tezdən oyanıblar, yuxuları yox!
Toppuş fidanlara sevgimə rəğmən,
Onların da məndən qorxuları yox!

Kəpənək yellənir çəmənə sarı,
Qanadları tüllü, xallar rəngbərəng.
Çiçəklər al, mavi, narıncı, sarı,
Gözəl təbiətlə nə xoş həmahəng!

Qarışqa yük çəkir qarışba qarış,
Boyundan böyükdür buğda şələsi.
Bağbanın alnında zəhmətdən qırış,
Bundan da ağırmı bağda şələsi.

Dünyanın ən güclü canlısı böcək,
Çarpışır ağır bir yükün altında.
Vurub haqq-hesaba, hesabla böl, çək,
Yükü çəkisinin beş-on qatında!

Deyirlər, yenə də ağlıma batmır,
Mənim təbiətim təbiilikdir.
Hərdən çox nizam da ürəyə yatmır,
Təbii olanlar mənimçün ilkdir!

...Yenidən seyr etdim bu səhər tezdən,
Təbi olan bu cür bağdan olammaz.
Gedib yapışacam haqq olan sözdən,
Mənim kimisindən bağban olammaz!

### DÜNYAMIZIN RƏNG ÇALARI

*İstedadlı rəssam həmyerlimiz*
*Nazim Hüseynova!*

Zövqü, istedadı Allahdan gəlir,
Rəngdir hər daş, qaya, hava, su ona.
Çoxları sənətə tamahdan gəlib,
O, ömür xərcləyir hər tablosuna..

Dolaşıb barmaqlar dalğın saçlara,
Rənglər aləmində ahəng axtarır.
Bilsə də dünyamız başdan ağ-qara,
Onu bəzəməyə çələng axtarır.

Çox bəmə düşübdür zildə gedənlər,
Ariflər sənətdən doya bilməyib.
Titulu bayraq tək əldə gedənlər,
Bəzən bu həyatı duya bilməyib.

İncə barmaqlarda qönçə fırçası,
Rənglərə saçlardan dən düşür hərdən.
Dünyanın vəsfidir kətan parçası,
Hopur ruhumuza mənzərələrdən.

### QANVERMƏ

Həkim, at daşını boş həyəcanın,
Qan verənin gərək ürəyi olsun!
Mənim dərd-sərimlə qaralan qanın,
Bəlkə kimlərəsə gərəyi olsun!

Gərək qan verək ki, can cana gələ.
İnsanın gümanı insana gələ,
Hər kəs yaxşılıqla ad sana gələ,
Fərz deyil təkcə duz-çörəyi olsun!

Bəşər övladıdır - qardaş, bacıdır!
Birinin başında şahlıq tacıdır,
Birinin taleyi kordur, acıdır,
Kömək dur, dünyanın dirəyi olsun!

Adəmdən yarandıq, haqq Haqqa bağlı,
Bizik kainatın kamalı, ağlı,
Bir olsun millətlər qaralı, ağlı,
Hamı sulh yolunun mələyi olsun!
Tanrı insanlığın köməyi olsun!

### ALLAHIM, HİFZ ELƏ

*Məni məndə sorma məndə deyiləm*
*Bir mən var dolaşır məndən içəri .*
***Yunis İmrə***

Dünya duyuq düşdü məndə deyiləm,
Məni iç mənimə inamım yıxdı.
Bəlkə heç o MƏNlik bəndə deyiləm,
Bəlkə güvəndiyim o məndə yoxdu.

O Məni dar gündə tapa bilmirəm
Mən onu içimdə çox əzizlədim,
Düz əhd-peymanımdan qopa bilmirəm,
Bəs bu qədər dərdi harda gizlədim?!...

Haqqa çox güvəndim haqqım alındı,
Şeytanlar, iblislər dağıdır, çatır.
Taledi, yazıdı, bəxtdi, alındı...
Bu da uydurmadır, elə baş qatır?.

Allahım, hifz eylə, asi deyiləm.
Çox mətləb anladım İncil, Qurandan!
Sənin əlindəsə yazı deyilən,
Elə yaz, düşməyim incik Qurandan!